# «Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mülki müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında Saziş»i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin verilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. «Azərbaycan Respublikası Hökuməti və Fransa Respublikası Hökuməti arasında mülki müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında Saziş»i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının fövqəladə hallar naziri Kəmaləddin Fəttah oğlu Heydərova verilməsi barədə Fransa Respublikası Hökumətinə müvafiq bildiriş göndərsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 27 yanvar 2007-ci il***

***№ 1918***